Aydın Mədətoğlu

Bizim yazar

Türklərə qarşı xristian dünyası və erməni münasibətlərinin xronologiyası

(başlanğıcı ötən sayımızda)

Rusiyanın planına əsasən, ermənilər Qacar dövləti ərazilərindən Quzey Azərbaycan ərazilərinə, buranın bir çox ərazilərindən isə Azərbaycan Türkləri Güney Azərbaycana köçürülməli, beləliklə də ermənilər Qacar Türklərinin əlindən qurtulmuş olacaqdı. Lakin Rusiya buna tam nail ola bilməmiş, və ermənilər Türkiyə, Qacar və Rusiya dövlətləri arasında bölünərək bu ərazilərdə qalmağa məcbur olmuşdular. Rusiyanın Qafqaza, o cümlədən də Azərbaycanın quzeyinə hakim olması erməni tarixində yeni bir səhifə açmış, haylar Rusiya ərazisinə daxil olan İrəvandakı İçmədzin kilsəsi ətrafında birləşərək Rusiyanın yardımı ilə Türkiyə, Güney və Qərbi Azərbaycanda bir "erməni" dövləti yaratmağa girişmişdilər.

Rusiyanın Şərqi Anadolu sərhədlərində mövcudluğu Osmanlı dövləti ərazilərindəki ermənilərlə rusları daha da yaxınlaşdırmış, ermənilər yeni ağalarının yardımı ilə Osmanlı İmperiyasına qarşı ruslarla əməkdaşlıq etməyə başlamışdılar. Ermənilər 1877-78-ci il Osmanlı-Rusiya müharibəsi zamanı Türklər əleyhinə rusların kəşfiyyatçıları kimi fəaliyyət göstərmiş, bu müharibə zamanı ruslar tərəfindən işğal olunmuş Osmanlı ərazilərində Türkləri və kürdləri qəddarcasına qətlə yetirmişdilər. 1877-78-ci il Rusiya-Osmanlı müharibəsi zamanı rusların qələbəsi Osmanlı və Rusiya ermənilər arasındakı əlaqələrin daha da yaxınlaşması ilə nəticələnmiş və «Ayastefanos müqaviləsi» ilə ilk dəfə olaraq «erməni məsələsi» bir siyasi problem kimi ortaya çıxmış və bu müqavilənin 16-cı maddəsində özünə yer bulmuşdu. Sonradan bu maddə olduğu kimi «Berlin müqaviləsi»nin 61-ci maddəsində də öz əksini tapmışdı.

Ruslar eyni zamanda ermənilər Osmanlı hökumətinə qarşı səslərini ucaltmağa və erməni «milləti»nin azadlığı uğrunda mübarizə aparmağa sövq etmişdi. Osmanlı ermənilərini Osmanlı hökumətinə qarşı ixtişaşlara sövq etməsi üçün Rusiyanın aşkar və gizli etdiyi bütün cəhdlər 1882-ci ilin əvvəllərində açıq-aydın üzə çıxmışdı. Türkiyədə baş verən erməni qiyamlarının Rusiya və İngiltərə tərəfindən yönləndirilməsi, "Qafqaz yolu ilə Kokucanyanların Türkiyəyə keçib Türk xalqına saldırması ermənilərin Rusiyanın əlində necə bir alətə çevrilmələrini bariz şəkildə göstərmişdir". (Bax: Mirzə Bala Məmmədzadə, Ermənilər və İran, səh. 19)

Xristianların, xüsusilə Rusiya və İngiltərənin qızışdırmaları ilə ortaya çıxan silahlı erməni üsyanları Avropadakı ermənilər arasında «Armenakan» (1885-ci ildə yaradılıb) və «Qnçak» (1887-ci ildə Cenevrədə yaradılıb) kimi siyasi partiyaların doğmasına yol açmışdı. Bunların ardınca 1890-cı ildə Tiflisdə «Daşnaksütyun» partiyası yaradılmışdı. Bu siyasi təşkilatların əsas məqsədi xristian havadarları olan böyük dövlətlərin, xüsusilə çar Rusiyasının yardımı ilə «Türkiyə, Rusiya və İran Ermənistanı» adlanan ərazilərin birləşdirilməsi yolu ilə «Böyük Ermənistan» yaratmaq olub.

Ermənilər belə hesab edirdilər ki, onlar Türk hakimiyyətlərindən qurtulmaq üçün istədikləri vaxt Rusiyaya müraciət edə bilərlər. Bu ideya onların beyninə Rusiyanın Vandakı vitse- konsulu tərəfindən yeridilmişdi. Burada yerli ermənilərı ixtişaş etməyə vadar edən Türkiyəni başdan-başa səyahət etmiş çoxlu sayda rus agentləri də var idi. Onlar ermənilər arasında Türklərə qarşı narazılığı yaymağa başlamışdı. Ona görə də ermənilər öz üsyankar fəaliyyətlərini artıraraq daha da qəddarlaşmışdılar. Ermənilər əmin idilər ki, ruslar tərəfindən onlar üçün cızılmış sərhədlərə malik olan «Ermənistan dövləti»nin yaradılması artıq xülya deyil və dünya xəritəsində meydana gələcək belə bir dövlət Rusiyanın isti dənizlərə və oradan da okeanlara çıxışını təmin edəcək və Rusiyanın öz sərhədlərini genişləndirmək niyyətlərini həyata keçirməkdən heç nə saxlaya bilməyəcək.

Rusların "Ayastefanos müqaviləsi" ilə "Erməni məsələsi"ni siyasi gündəmə gətirməsi, ermənilərə "müstəqillik" və "Ermənistan dövləti" qurmaq vədi verməsinin mahiyyətini ermənilər yalnız Çar Rusiyası hökümətinin əsl sifətini gördükdən sonra başa düşmüşdülər. Bekə ki, çar hökümətinin ermənilərin Anadolu ixtişaşlarından sonra Rusiyada qaçqın kimi məskunlaşmış ermənilərdən Rusiya vətəndaşlığını qəbul etməyi, ya da dərhal ölkəni tərk etməyi tələb etmiş, bununla bağlı 4 min ermənini həbs etmiş, onlardan 3 minini sürgün etmiş, 300 erməni məktəbini bağlatmış, məktəblərdə rus dili erməni uşaqlarına məcburi keçirilmiş, məcburi olaraq Qriqoryan ermənilərin bir qismini Ortodoks xristianlara çevirmiş, erməni kilsəsinin mülkiyyətini müsadirə etmiş, bir sözlə, ermənilərin ruslaşdırılması siyasətini təcrübəyə qoymuşdu. Sonda bu tələbləri yerinə yetirmək istəməyən çoxlu sayda erməni Rusiyadan Amerikaya və digər Avropa ölkələrinə miqrasiya etmişdilər. Bütün bunlar çoxlu sayda ermənilərin ruslara nisbətən Britaniyalılara etibar etmələrinə səbəb olmuşdu.

Rusiya siyasətində ermənilərə qarşı yumşalma yalnız 1905- ci il Rusiya-Yaponiya müharibəsində rusların məğlubiyyətindən sonra başlamışdı. (Seçmələr bizimdir - A.M.

Bax; Yıldırım. H., - Türk-rus-erməni münasibətləri, 1914-1918, Ankara 1990).

Erməni terror təşkilatının və hərbi qruplarının xarici qüvvələr tərəfindən silah və hərbi sürsatla hədsiz dərəcədə təmin olunması I Dünya müharibəsinə qədər olan illərdə ermənilər üsyan və ixtişaşlarını artırmışdı. Bu ixtişaşlar içərisində 1905-ci ildə gərginləşmiş, Azərbaycanın müxtəlif yerlərində, xüsusilə də Qarabağ və Göyçə bölgələrində hər iki tərəfdən qarşılıqlı olaraq çox sayda insan öldürülmüşdü. Həmçinin daşnak terrorçu təşkilatı 21 iyul 1905 - ci ildə Osmanlı sultanı II Əbdülhəmidə qəsd təşkil etmiş, onun faytonunu partlatmağa çalışmışdılar ki, bu partlayışda sultana heç nə olmasa da 25 nəfər həlak olmuş, 58 nəfər yaralanmışdı. Ermənilər bu ixtişaşlarını davam etdirmiş, 9 aprel 1909-cu ildə Adanada 2 yeniyetmə və bir yaşlı Türkü öldürmüş, silahlı erməni qiyamçıları dinc əhaliyə atəş açaraq 100 - dən çox Türkü qətlə yetirmiş, 1909 - cu ilin oktyabr ayında Kozanlı erməni yepiskopu Muşeqin başçılığı ilə 200 qiyamçıdan ibarət erməni dəstəsi Adanada bütün müsəlman əhalini qıracaqlarına dair and içmişdilər.

Avropada müharibə başlayan zaman ermənilər bunu müstəqillik qazanmaq üçün əla bir şans hesab etmiş, bir siyasət işlədərək guya çar Rusiyası ilə Osmanlı İmperiyası arasında müharibə olacağı təqdirdə onlar Osmanlıların" sadiq vətəndaşları" kimi Osmanlıları dəstəkləyəcəklərinə söz vermiş, lakin onlar verdikləri sözün üstündə durmamış, çar Rusiyasının çağrısına qoşularaq, Türklərə qarşı müharibə aparacaqları barədə açıq elan etməyə başlamışdılar. Daşnaksütyun komitəsi açıq bildirmişdi ki, Rusiya ermənilərı Rusiya ordu sıralarına qoşulacaq və müharibə aparacaq ki, Osmanlı ermənilərini Türk əsarətindən xilas etsinlər. Ermənilər 1914-1918- ci illər boyu Rusiya ordusuna lazımi səviyyədə xidmət etmiş, Osmanlı parlamentinin üzvü daşnak lideri Armen Qaro Türklərə qarşı könüllü erməni alayının mübarizə aparmasında böyük rol oynamışdı. Erməni İnqilab Komitəsi müttəfiq dövlətlərlə (İngiltərə, Fransa, Rusiya ilə) birləşərək, Türklərə qarşı vətəndaş müharibəsi cəbhəsini açmış, bununla ermənilər Türklərə daxildə zərbə endirmək üçün beşinci cəbhə əldə etmişdi.

Xüsusilə Rusiya Türklərə arxadan effektiv zərbə endirmək üçün erməni fəallarının silahlanmasında və bununla da cəbhə xətinin Türk qüvvələrinin təzyiqindən azad edilməsində mühüm rol oynamışdı.

(ardı gələn sayımızda)

Ermənilər belə hesab edirdilər ki, onlar Türk hakimiyyətlərindən qurtulmaq üçün istədikləri vaxt Rusiyaya müraciət edə bilərlər. Bu ideya onların beyninə Rusiyanın Vandakı vitse- konsulu tərəfindən yeridilmişdi. Burada yerli ermənilərı ixtişaş etməyə vadar edən Türkiyəni başdan-başa səyahət etmiş çoxlu sayda rus agentləri də var idi. Onlar ermənilər arasında Türklərə qarşı narazılığı yaymağa başlamışdı. Ona görə də ermənilər öz üsyankar fəaliyyətlərini artıraraq daha da qəddarlaşmışdılar